Yeni kitablar

# "Hərb tarixi elminin əsas tədqiqat metodları" adlı dərs vəsaiti çapdan çıxıb




*"Dərbənd" Xeyriyyə İctimai Birliyinin sədri, ehtiyatda olan 1-ci dərəcəli kapitan, Azərbaycan Silahlı Qüvvələri Hərbi Akademiyasının professoru, tarix elmləri doktoru Nurulla Əliyevin AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Nərminə Əmirbəyova ilə birgə ərsəyə gətirdikləri "Hərb tarixi elminin əsas tədqiqat metodları" adlı dərs vəsaiti çapdan çıxıb.*

AZƏRTAC xəbər verir ki, Azərbaycan Silahlı Qüvvələri Hərbi Akademiyasının nəşr etdirdiyi və 7 fəsildən ibarət olan kitabda hərb tarixi elminin təşəkkülü prosesinə, elmi tədqiqatın metodlarının və prinsiplərinin öyrənilməsinə geniş yer ayrılıb. Bu nəşr fundamental və sistemli bilikləri ehtiva edir, aspirantların və adyunktların hərb tarixi üzrə tədqiqatları daha fəal aparmasını stimullaşdırır. Kitabda hərbi-tarixi tədqiqatların aparılması çərçivəsində metodların təkmilləşdirilməsi və onların praktiki məşğələlərin keçirilməsində tətbiqi məsələləri işıqlandırılıb, müxtəlif sahələr (sosiologiya, psixologiya, filologiya) üzrə tədqiqatçıların istifadə edəcəyi xüsusi elmi tədqiqat üsulları açıqlanıb.

Dərs vəsaiti iki hissədən ibarətdir. "Tarix elminin prinsipləri. Hərb tarixi elminin metodologiyası" adlı birinci hissə "Tarix bir elm kimi. Tarixi prosesin öyrənilməsi prinsipləri", "Elmi yanaşma anlayışı" və "Hərbi-tarixi tədqiqatların metodologiyası və metodlarının əsas aspektləri" mövzularına həsr olunmuş 3 fəsildən ibarətdir.

"Hərbi-tarixi tədqiqatların ümumi elmi metodları. Elmi kitabların yazılması metodikası" adlı ikinci hissə elmi metodları universal dərketmənin, empirik, nəzəri problemlərin izah olunduğu dörd fəsildən ibarətdir.

Müəllimlər, aspirantlar, adyunktlar və ali məktəblərin humanitar fakültələrinin və respublikanın xüsusi təyinatlı təhsil müəssisələrinin tələbələri üçün nəzərdə tutulan dərs vəsaitinin elmi redaktoru AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun direktoru, tarix elmləri doktoru, akademik Yaqub Mahmudov, redaktoru Azərbaycan Silahlı Qüvvələri Hərbi Akademiyasının professoru, filologiya elmləri doktoru Sədi Nuriyevdir.

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant Samir HÜSEYNOV

Azərbaycan orduasu.- 2018.- 21 noyabr.- S.8.